**Azərbaycan Respublikası**
**Xarici İşlər Nazirliyi**

**Haraya: TƏMİMİ**

**Göndərilmə nömrəsi:** 3/57-5817/01/17 **Tarix:** 10.03.17.

**Sənəd necə göndərilir:** **Elektron Poçt**

**Səhifələrin sayı:** **3** **Əlavə olunur: 12**

**Məhdudluq qrifi:** **Adi**

**Təciliyi:** **Təcili**

**Vacibliyi:** **Çox vacib**

Nəzərinizə çatdırılır ki, "2017-ci ilin Azərbaycan Respublikasında "İslam Həmrəyliyi İli" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 yanvar tarixli 2588 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri cənab Ramiz Mehdiyev tərəfindən "2017-ci ilin Azərbaycan Respublikasında "İslam Həmrəyliyi İli" elan edilməsinə dair Tədbirlər Planı" (əlavə olunur) təsdiq edilmişdir. Tədbirlər Planında nəzərdə tutulmuş bir sıra fəaliyyətlərin həyata keçirilməsində Xarici İşlər Nazirliyi məsul qurum kimi müəyyənləşdirilmişdir.

Bununla əlaqədar olaraq, Tədbirlər Planının icrası digər dövlət qurumları ilə yanaşı Xarici İşlər Nazirliyinin də üzərinə düşmüş müvafiq bəndlərinin həyata keçirilməsinin təmin edilməsi məqsədilə aşağıda göstərilmiş bölgüyə əsasən müvafiq tədbirlərin görülməsini xahiş edirik:

**İƏT üzv dövlətlərində akkreditə olunmuş diplomatik nümayəndəlik və konsulluqlar üçün:**

- İƏT üzv dövlətlərində gənclər arasında "Mən Azərbaycan haqqında nə bilirəm" mövzusunda müsabiqənin təşkil edilməsi;
- İƏT-ə üzv ölkələrin KİV-lərində dünyada İslam həmrəyliyinin gücləndirilməsində Azərbaycanın rolunu təbliğ edən materialların nəşri, Azərbaycanda keçiriləcək İslam Həmrəyliyi oyunları barəsində reklam çarxlarının yerləşdirilməsi;
- Tədbirlər Planında nəzərdə tutulmuş "Dini tolerantlığın qorunması və radikalizmlə mübarizədə dünya birliyinə Azərbaycanın dəstəyi" devizi altında "Azərbaycan – İslam mədəniyyətinin incisi" adlı foto sərginin akkreditə olduğunuz ölkələrdə hazırlanması və keçirilməsi üçün təkliflərin (mümkün tarixləri və yeri) verilməsini (**qeyd:** sərginin keçirilməsində istifadə edilməsi üçün foto ekspozisiyanın hazırlanması məqsədilə Xarici İşlər Nazirliyi tərəfindən aidiyyəti qurumlara müraciət göndəriləcəkdir).

**Xaricdə akkreditə olunmuş bütün diplomatik nümayəndəlik və konsulluqlar üçün:**

- xarici kütləvi informasiya vasitələrində IV İslam Həmrəyliyi Oyunları və "İslam Həmrəyliyi İli" ilə bağlı məlumat və məqalələrin dərc edilməsi, eləcə də "İslam Həmrəyliyi İli" çərçivəsində həyata keçiriləcək layihələrin beynəlxalq mətbuatda

işıqlandırılması, televiziya kanallarında bu barədə materialların verilməsi (həyata keçirilən tədbirlərin ölkədə və xaricdə təbliği);

- Tədbirlər Planında nəzərdə tutulmuş Azərbaycan ərazilərindəki (Dağlıq Qarabağ və ətraf bölgələr) müxtəlif konfessiyalara məxsus tarixi-dini abidələrə qarşı erməni vandalizmini əks etdirən foto sənədlərdən ibarət sərgilərin təşkili üçün təkliflərin verilməsi (<u>qeyd:</u> sərgilərin keçirilməsində istifadə edilməsi üçün foto ekspozisiyanın hazırlanması məqsədilə Xarici İşlər Nazirliyi tərəfindən aidiyyəti qurumlara müraciət göndəriləcəkdir)

**NDNC, NBMT, SRYD, NYNS, SVYN, SBRS, SRBT və SANK, KİST, STHR, SKVT, SABD, SQAT, SAMN, KDUB, SQHR, SAST, SBRT, SİSL, SCKT, SKUL üçün:**

- BMT, İƏT, YUNESKO, ATƏT, İSESKO, Aİ və digər beynəlxalq təşkilatların qərargahlarında, eləcə də aparıcı müsəlman ölkələrinin paytaxtları və şəhərlərində "İslam Həmrəyliyi İli" və IV İslam Həmrəyliyi Oyunlarının elan edilməsi ilə əlaqədar təqdimatların keçirilməsi, reklam çarxlarının və ingilis, ərəb, fransız dillərində nəşrlərin təqdimatlarının keçirilməsi;

**SABD və KDUB üçün:**

- Azərbaycanın ixrac məhsullarına və xidmət sahələrinə həsr edilən *"İslamic Solidarity Year: destination Azerbaijan"* adlı beynəlxalq turizm və ticarət yarmarkasının təşkil edilməsi;

**SBRN üçün:**

- Bern şəhərindəki "Dinlər evi"ndə "Azərbaycan Respublikasında dövlət-din münasibətlərinin xüsusiyyətləri" mövzusunda təqdimatın keçirilməsi;

**SBRL üçün:**

- Almanların Azərbaycana köçürülməsinin 200 illiyi münasibətilə Berlin və Drezden şəhərlərində "Lüteranlıq və islam" mövzusunda dəyirmi masanın təşkil edilib keçirilməsi;

**SMSK üçün:**

- "Qafqaz regionunda dini durum: mövcud problemlər və perspektivlər (Azərbaycan və Rusiya siyasi həmrəyliyi işığında)" mövzusunda Moskva şəhərində beynəlxalq konfransın keçirilməsi

Qeyd edirik ki, Tədbirlər Planının 23 və 31-ci bəndlərində nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi ilə bağlı müvafiq təlimatlar ölkəmizin aidiyyəti diplomatik nümayəndəlik və konsulluqlarına əlavə olaraq Mərkəz tərəfindən veriləcəkdir. Xüsusilə vurğulayırıq ki, Azərbaycan Respublikası Prezidenti Administrasiyasından verilmiş qeyri-rəsmi məlumata əsasən, Tədbirlər Planında göstərilmiş fəaliyyətlərin həyata keçirilməsi üçün dövlət büdcəsindən əlavə maliyyə vəsaitinin ayrılması nəzərdə tutulmamışdır. Tədbirlər Planının icrasının təşkilinin əlaqələndirilməsi Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşavirinin xidmətinə həvalə edilmişdir.

Yuxarıda qeyd edilənləri nəzərə alaraq, görüləcək işlərin nəticələri barədə mütəmadi əsasda Mərkəzə məlumat verməyinizi xahiş edirik.

**Hörmətlə,**

**Nazir** **Elmar Məmmədyarov**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN ADMİNİSTRASİYASI RƏHBƏRİNİN SƏRƏNCAMI**

№ 30 « 10 » fevral 2017-ci il

**2017-ci ilin Azərbaycan Respublikasında "İslam Həmrəyliyi İli" elan edilməsi ilə bağlı tədbirlər planının təsdiq edilməsi haqqında**

"2017-ci ilin Azərbaycan Respublikasında "İslam Həmrəyliyi İli" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 yanvar tarixli 2588 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. "2017-ci ilin Azərbaycan Respublikasında "İslam Həmrəyliyi İli" elan edilməsinə dair Tədbirlər Planı" təsdiq edilsin (əlavə olunur).

2. Bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş Tədbirlər Planının icrasının təşkilinin əlaqələndirilməsi Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşavirinin xidmətinə həvalə edilsin.

3. Tədbirlər Planında nəzərdə tutulmuş işlərin yerinə yetirilməsi üçün məsul olanlar həmin tədbirlərin həyata keçirilməsini təmin etsinlər.

**Ramiz Mehdiyev**

Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin 2017-ci il "______" "___________" tarixli ________ nömrəli Sərəncamı ilə təsdiq edilmişdir.

## 2017-ci ilin Azərbaycan Respublikasında "İslam Həmrəyliyi İli" elan edilməsinə dair

## TƏDBİRLƏR PLANI

| Sıra №-si | Tədbirin adı | İcra müddəti və yeri | İcraçılar | Təşkil və nəzarət edən qurum |
|---|---|---|---|---|

### I. İslamdaxili həmrəylik istiqaməti:
### A. Ölkə daxilindəki tədbirlər

| Sıra №-si | Tədbirin adı | İcra müddəti və yeri | İcraçılar | Təşkil və nəzarət edən qurum |
|---|---|---|---|---|
| 1. | Bakıda "Heydər Əliyev və İslam həmrəyliyi" mövzusunda beynəlxalq konfransın keçirilməsi | may | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri xidməti, Xarici əlaqələr şöbəsi, Humanitar siyasət məsələləri şöbəsi |
| 2. | Bakıda IV İslam Həmrəyliyi Oyunları zamanı İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv dövlətlərin idman məsələlərinə məsul nazirlərinin iştirakı ilə "İdmanın İslam həmrəyliyinin gücləndirilməsində rolu" mövzusunda nazirlərin dəyirmi masasısının keçirilməsi | iyul | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Gənclər və İdman nazirliyi | Xarici əlaqələr şöbəsi, Humanitar siyasət məsələləri şöbəsi |

| | | | | |
|---|---|---|---|---|
| 3. | “İslam Həmrəyliyi İli”nin loqosunun hazırlanması və il ərzində respublikada keçirilən tədbirlərdə, eləcə də şəhərin müxtəlif məkanlarında yerləşdirilməsi | fevral-dekabr | Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti | Regional idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsi, Humanitar siyasət məsələləri şöbəsi |
| 4. | “İslam həmrəyliyi ili - 2017: reallıqlar və perspektivlər” mövzusunda elmi-metodik konfransın keçirilməsi | aprel | Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyası, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri xidməti, Humanitar siyasət məsələləri şöbəsi |
| 5. | “İslam həmrəyliyi elm və təhsildə: hədəflər və çağırışlar” mövzusunda respublika elmi konfransı və konfrans çərçivəsində “Ən yaxşı məruzə” müsabiqəsinin təşkili | aprel | Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyası | Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri xidməti, Humanitar siyasət məsələləri şöbəsi |
| 6. | “Yeni dünya çağırışları: Azərbaycan və İslam”, “İslam sivilizasiyası: müasir dini baxışlar və yeni dünya”, “İslam mədəniyyəti və sivilizasiyalararası münasibətlər”, “İslam incəsənəti XXI əsrdə: ənənə və müasirlik”, “Orta əsr əlyazmaları və Azərbaycan mədəniyyətinin tarixi problemləri: yazılı abidələrdə islami dəyərlər”, “Azərbaycan ədəbiyyatında İslam həmrəyliyi və tolerantlıq”, “İslam Mədəniyyətində həmrəylik”, “İslam və Demokratiya: tarix və müasirlik” mövzularında gənc alimlərin elmi konfranslarının və dəyirmi masaların keçirilməsi, kitabların nəşr olunması | il ərzində | Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyası | Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri xidməti, Humanitar siyasət məsələləri şöbəsi |
| 7. | Şəhər (rayon) kitabxanaları, mədəniyyət mərkəzləri (filialları ilə birlikdə), mədəniyyət evləri və klublarda “İslam həmrəyliyi” mövzusunda silsilə tədbirlərin, | il ərzində | Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikasının | Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri xidməti, Humanitar siyasət məsələləri şöbəsi |

| | | | | |
|---|---|---|---|---|
| | dəyirmi masaların, seminarların, mühazirələrin keçirilməsi | | Prezidenti yanında Bilik Fondu | |
| 8. | Heydər məscidində formalaşan "Vəhdət namazı" təcrübəsinin digər məscidlərdə yayılması | il ərzində | Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu, yerli icra hakimiyyəti orqanları | Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri xidməti, Regional idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsi |
| 9. | Orta ixtisas, peşə və ali təhsil müəssisələrində, müxtəlif bölgələrdə İslam həmrəyliyinə dair mühazirələrin təşkili | il ərzində | Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu | Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri xidməti, Humanitar siyasət məsələləri şöbəsi |
| 10. | İslam həmrəyliyinə həsr edilmiş məqalələrin Kütləvi informasiya vasitələrində dərc edilməsi, bu mövzuya həsr olunmuş televiziya verilişlərinin təşkili | il ərzində | Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu, "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC | İctimai-siyasi məsələlər şöbəsi, Humanitar siyasət məsələləri şöbəsi |

| | | | | |
|---|---|---|---|---|
| 11. | İslam həmrəyliyinin Azərbaycan modelinin təbliği və təşviqi ilə bağlı materialların yayılması, Azərbaycanın Dağlıq Qarabağ bölgəsində, ona bitişik ərazilərdə və digər yerlərdə erməni vandalizminə məruz qalmış İslam mədəniyyəti abidələri ilə bağlı məlumatların dünya ictimaiyyətinə geniş şəkildə çatdırılması, İslam həmrəyliyinin gücləndirilməsində Azərbaycanın roluna və bu prosesə verdiyi töhfələrə dair müsəlman ölkələrinin rəsmi şəxslərindən, tanınmış din xadimlərindən, ekspertlərindən, eləcə də xarici ölkələrin Bakı şəhərindəki səfirlərindən rəy və müsahibələrin alınması, silsilə analitik yazıların, reportajların hazırlanması | mütəmadi | "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC, İctimai Televiziya və Radio Yayımları Şirkəti, AzərTAc, "Azərbaycan" qəzeti, "Multikulturalizm" jurnalı, Kulturaplus və digər KİV-lər | Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri xidməti, İctimai-siyasi məsələlər şöbəsi |
| 12. | Azərbaycanın İslam sivilizasiyasına töhfəsini əks etdirən əsərlərin hazırlanması və nəşri | il ərzində | Azərbaycan Milli Elmlər Akademiyası | Humanitar siyasət məsələləri şöbəsi |
| 13. | "Ərəb mənbələrində azərbaycanlı alimlərin həyat və yaradıcılığı" mövzusunda kitabın Azərbaycan, ingilis və rus dillərində nəşri və təqdimatı | il ərzində | Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyası, Misirin Əl-Halqa Fondu | İctimai-siyasi məsələlər şöbəsi, Humanitar siyasət məsələləri şöbəsi |
| 14. | "İslam həmrəyliyi" mövzusunda görülmüş işlərin elm və təhsil müəssisələrinin saytlarında yerləşdirilməsi və jurnallarında dərc edilməsi | il ərzində | Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası | Humanitar siyasət məsələləri şöbəsi |
| 15. | Uşaq və yeniyetmələr üçün qısa "İslam ensiklopediyası"nın hazırlanması və nəşri | il ərzində | Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Milli Elmlər | Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri xidməti, Humanitar siyasət məsələləri şöbəsi |

| | | | | |
|---|---|---|---|---|
| | | | Akademiyası, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Yazıçılar Birliyi | |
| 16. | Azərbaycandakı İslam abidələrinin fotosərgisinin təşkili və fotoalbomun nəşr edilməsi | il ərzində | Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri xidməti, Humanitar siyasət məsələləri şöbəsi |
| 17. | Ərəb dilində "İslam Həmrəyliyi İli"nə həsr olunmuş silsilə verilişlərin yayımlanması | mütəmadi | CBC" telekanalı | İctimai-siyasi məsələlər şöbəsi |
| 18. | IV İslam Həmrəyliyi Oyunlarının təbliğinə həsr olunmuş sərgilərin və müsabiqələrin təşkili | aprel-may | Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi | Humanitar siyasət məsələləri şöbəsi |
| 19. | Sosial şəbəkələrdə il ərzində keçirilən tədbirlərlə bağlı məlumatların yayılması | il ərzində | Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondu, AzərTAc, digər KİV-lər | İctimai-siyasi məsələlər şöbəsi, Siyasi təhlil və informasiya təminatı şöbəsi |
| 20. | İƏT-ə üzv Dövlətlərin Jurnalistləri Assosiasiyasının I Beynəlxalq konfransının təşkili | avqust-sentyabr | Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondu, Mətbuat Şurası | İctimai-siyasi məsələlər şöbəsi |
| 21. | "İslam Həmrəyliyi Oyunlarının İslam ölkələri arasında mədəni əlaqələrin gücləndirilməsində rolu" mövzusunda yerli və xarici KİV nümayəndələrinin iştirakı ilə dəyirmi masanın təşkili | may-iyun | Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu, Azərbaycan Mətbuat Şurası | Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri xidməti, İctimai-siyasi məsələlər şöbəsi, Humanitar siyasət məsələləri şöbəsi |
| 22. | İslam ölkələrinin səfirləri ilə ali məktəblərdə görüşlərin təşkil olunması | il ərzində | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Televiziya və Radio Verilişləri QSC, İctimai | İctimai-siyasi məsələlər şöbəsi, Xarici əlaqələr şöbəsi, Humanitar siyasət məsələləri şöbəsi |

| | | | | |
|---|---|---|---|---|
| | | | Televiziya və Radio Yayımları Şirkəti, Azərbaycan Dövlət İnformasiya Agentliyi | |
| 23. | Azərbaycanın korrupsiyaya qarşı mübarizə sahəsində siyasəti, təcrübəsi və metodları, o cümlədən "ASAN" xidmət modelinin müsəlman ölkələri arasında təbliğ edilməsi | il ərzində | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | Xarici əlaqələr şöbəsi, Hüquq mühafizə orqanları ilə iş şöbəsi |

## B. Ölkə xaricindəki tədbirlər

| | | | | |
|---|---|---|---|---|
| 24. | "Qafqaz regionunda dini durum: mövcud problemlər və perspektivlər (Azərbaycan və Rusiya siyasi həmrəyliyi işığında)" mövzusunda beynəlxalq konfransın keçirilməsi | il ərzində, Rusiya | Xarici İşlər Nazirliyi, Təhsil Nazirliyi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyası, Ümumrusiya Azərbaycan Konqresi, Rusiya Azərbaycanlı Gənclər Təşkilatı | Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri xidməti, İctimai-siyasi məsələlər şöbəsi, Xarici əlaqələr şöbəsi, Humanitar siyasət məsələləri şöbəsi |
| 25. | İslam ölkələri gəncləri arasında "Mən Azərbaycan haqqında nə bilirəm?" mövzusunda müsabiqənin keçirilməsi | mart-iyun | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri xidməti, Xarici əlaqələr şöbəsi, Humanitar siyasət məsələləri şöbəsi |

| | | | | |
|---|---|---|---|---|
| 26. | Xarici kütləvi informasiya vasitələrində IV İslam Həmrəyliyi Oyunları və "İslam Həmrəyliyi İli" ilə bağlı məlumat və məqalələrin dərc edilməsi, eləcə də "İslam Həmrəyliyi İli" çərçivəsində həyata keçiriləcək layihələrin beynəlxalq mətbuatda işıqlandırılması, televiziya kanallarında bu barədə materialların verilməsi (həyata keçirilən tədbirlərin ölkədə və xaricdə təbliği) | il ərzində | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi, "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC, AzərTAc, Kulturaplus | İctimai-siyasi məsələlər şöbəsi, Xarici əlaqələr şöbəsi |
| 27. | "İslam Həmrəyliyi İli" və IV İslam Həmrəyliyi Oyunları ilə bağlı Azərbaycan diasporunun üzvü olan fəal sosial şəbəkə istifadəçilərindən ibarət təbliğat qrupunun formalaşdırılması və diaspor təşkilatlarının internet səhifələrində müvafiq məlumatların yerləşdirilməsi | il ərzində | Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi | İctimai-siyasi məsələlər şöbəsi |
| 28. | İƏT-ə üzv ölkələrin KİV-lərində dünyada İslam həmrəyliyinin gücləndirilməsində Azərbaycanın rolunu təbliğ edən materialların nəşri, Azərbaycanda keçiriləcək İslam Həmrəyliyi oyunları barəsində reklam çarxlarının yerləşdirilməsi | il ərzində | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının İdman və Gənclər Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Diasporla İş üzrə Dövlət Komitəsi | Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri xidməti, İctimai-siyasi məsələlər şöbəsi, Xarici əlaqələr şöbəsi, Humanitar siyasət məsələləri şöbəsi |
| 29. | Müxtəlif qurumların xarici filial və nümayəndəliklərində, İƏT, YUNESKO, İSESKO və digər beynəlxalq təşkilatların qərargahlarında, eləcə də aparıcı müsəlman ölkələrinin paytaxtları və şəhərlərində "İslam Həmrəyliyi İli" və IV İslam Həmrəyliyi Oyunlarının elan edilməsi ilə əlaqədar | il ərzində, müxtəlif ölkələrdə | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi, Milli Olimpiya Komitəsi, Bakı Beynəlxalq Multikulturalizm | Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri xidməti, İctimai-siyasi məsələlər şöbəsi, Xarici əlaqələr şöbəsi, Humanitar siyasət məsələləri şöbəsi |

| | | | | |
|---|---|---|---|---|
| | təqdimatların keçirilməsi, reklam çarxlarının və ingilis, ərəb, fransız dillərində nəşrlərin təqdimatlarının keçirilməsi | | Mərkəzi, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu | |
| 30. | Azərbaycanın ixrac məhsullarına və xidmət sahələrinə həsr edilən "İslamic Solidarity Year: destination Azerbaijan" adlı beynəlxalq turizm və ticarət yarmarkasının təşkil edilməsi | noyabr, Birləşmiş Ərəb Əmirlikləri | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi | Xarici əlaqələr şöbəsi, Humanitar siyasət məsələləri şöbəsi |

## II. İslam və digər konfessiyalar arasında həmrəylik istiqaməti:
## A. Ölkə daxilindəki tədbirlər

| | | | | |
|---|---|---|---|---|
| 31. | Prezident İlham Əliyevin müsahibə və çıxışlarında dinlərin həmrəyliyinə dair fikirlərdən ibarət kitabın Azərbaycan, rus və ingilis dillərində hazırlanması, nəşri və təqdimatlarının keçirilməsi | il ərzində, ölkədə və xaricdə | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Dövlət İnformasiya Agentliyi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri xidməti, İctimai-siyasi məsələlər şöbəsi, Xarici əlaqələr şöbəsi, Humanitar siyasət məsələləri şöbəsi |
| 32. | 2017-ci ildə ölkəmizdə keçirilməsi planlaşdırılan IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində "Azərbaycanda dinlərarası harmoniya" adlı bölmənin təşkil edilməsi | aprel | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, | Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri xidməti, Xarici əlaqələr şöbəsi, Humanitar siyasət məsələləri şöbəsi |

| | | | | |
|---|---|---|---|---|
| | | | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | |
| 33. | “Azərbaycan - dinlərin həmrəyliyi mərkəzi” mövzusunda Beynəlxalq Yay Multikulturalizm məktəbinin təşkili | iyul | Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu, yerli icra hakimiyyətləri | Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri xidməti, İctimai-siyasi məsələlər şöbəsi, Regional idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsi, Humanitar siyasət məsələləri şöbəsi |
| 34. | “Azərbaycanda səmavi dinlərin abidələri” məlumat kitabının hazırlanıb nəşr etdirilməsi və təqdimatlarının keçirilməsi | il ərzində | Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri xidməti, Humanitar siyasət məsələləri şöbəsi |
| 35. | Ölkədəki məscid, kilsə və sinaqoqların dini həmrəylik mövzusunda kitablarla təmin edilməsi | il ərzində | Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu | Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri xidməti, Humanitar siyasət məsələləri şöbəsi |
| 36. | Dövlət rəsm qalereyalarında «Səmavi dinlərin tarixi (iudaizm və xristianlıq)» mövzusunda sərginin təşkili və keçirilməsi | il ərzində | Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə | Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri xidməti, Humanitar |

| | | | | |
|---|---|---|---|---|
| | | | Dövlət Komitəsi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Rəssamlar İttifaqı | siyasət məsələləri şöbəsi |
| 37. | 16 noyabr – Beynəlxalq tolerantlıq günü münasibətilə elmi-mədəni tədbirin və din xadimlərinin mükafatlandırılması mərasiminin keçirilməsi | noyabr | Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu | Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri xidməti, Humanitar siyasət məsələləri şöbəsi |

## B. Ölkə xaricindəki tədbirlər

| | | | | |
|---|---|---|---|---|
| 38. | Bern şəhərindəki "Dinlər evi"ndə "Azərbaycan Respublikasında dövlət - din münasibətlərinin xüsusiyyətləri" mövzusunda təqdimatın keçirilməsi | mart, İsveçrə | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri xidməti, Xarici əlaqələr şöbəsi |
| 39. | Almanların Azərbaycana köçürülməsinin 200 illiyi münasibətilə "Lüteranlıq və islam" mövzusunda dəyirmi masanın keçirilməsi | sentyabr, Berlin, Drezden | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyası, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri xidməti, Xarici əlaqələr şöbəsi, Humanitar siyasət məsələləri şöbəsi |
| 40. | Azərbaycan ərazilərindəki (Dağlıq Qarabağ | il ərzində, | Mədəniyyət və Turizm Nazirliyi, Xarici | Millətlərarası, multikulturalizm |

| | | | | |
|---|---|---|---|---|
| | və ətraf bölgələr) müxtəlif konfessiyalara məxsus tarixi-dini abidələrə qarşı erməni vandalizmini əks etdirən foto sənədlərdən ibarət sərgilərin təşkili | müxtəlif ölkələrdə | İşlər Nazirliyi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Diasporla İş üzrə Dövlət Komitəsi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, “Azərbaycan Televiziya və Radio Verilişləri” QSC, Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC), KİV-lər | və dini məsələlər üzrə Dövlət müşaviri xidməti, İctimai-siyasi məsələlər şöbəsi, Humanitar siyasət məsələləri şöbəsi |
| **41.** | “Dini tolerantlığın qorunması və radikalizmlə mübarizədə dünya birliyinə Azərbaycanın dəstəyi” devizi altında “Azərbaycan – İslam mədəniyyətinin incisi” adlı foto sərginin hazırlanması və keçirilməsi | il ərzində, müxtəlif müsəlman ölkələrində | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri xidməti, İctimai-siyasi məsələlər şöbəsi, Xarici əlaqələr şöbəsi, Humanitar siyasət məsələləri şöbəsi |